AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**«Beynəlxalq münasibətlər» kafedrası**

***Magistr hazırlığı üçün***

# İQTİSADİ DİPLOMATİYA

**fənninin**

# P R O Q R A M I

Azərbaycan Respublikası Təhsil
Nazirinin 27.09.2010-cu il tarixli
1265 nömrəli əmri ilə qrif verilmişdir

**BAKI – 2011**

Proqram Azərbaycan Dövlət İqtisad Universitetinin «Beynəlxalq münasibətlər» kafedrasında hazırlanmışdır.

**Tərtibçilər:** prof. **B.M.Abdullayev**

müəl.**A.K.Eyyubov**

**Redaktor:** dos. **Ə.İ.Abdullayev**

**Rəyçilər:** **dos. H.A.İsrafilov**

**dos. Z.R.Bayramov**

*Proqram kursun məcmuəsi və magistrlər üçün əsas ədəbiyyat siyahısından ibarətdir. Girişdə iqtisadi diplomatiyanın ayrıca bir kurs olaraq müasir dövrün tələbələrinə cavab olaraq yaranması zəruriyyətindən və öyrənilməsinin əhəmiyyəti izah edilir.*

*Proqram beynəlxalq münasibətləri öyrənən magistrlər üçün tövsiyyə edilir.*

**KURSUN MƏQSƏDİ:** İqtisadi diplomatiya beynəlxalq münasibətlərin ictimai-siyasi münasibətlər sferasında nisbətən yeni sahədir. Siyasətin iqtisadlaşdığı, iqtisadiyyatın isə siyasətləşdiyi qloballaşma prosesi dövründə dünya iqtisadiyyatı ilə beynəlxalq siyasəti vəhdət şəklində nəzərdən keçirən iqtisadi diplomatiya bir fənn olaraq aşağıdakı məqsədlərə xidmət edir:

A) tələbələrin milli iqtisadi maraqlar anlayışını daha dərindən qavramaq, bu maraqların nə milli, nə də beynəlxalq iqtisadi təhlükəsizliyə təhlükə yaratmadan, effektiv şəkildə inkişafı və modernləşməsinin yolları, metodlarını göstərmək, bu yönümdə araşdırmalar aparmağa istiqamətləndirmək;

B) dünya təsərrüfat təcrübəsinin, onun alternativ inkişaf variantlarının nəzərə alınması ilə gələcəyini xarici siyasi və xarici iqtisadi

fəaliyyətlə bağlamaq əzmində olan magistrlərin intellektual bazasının zənginləşdirilməsi;

C) tələbələrdə «üfüqdən o yana» baxmaq məqsədli düşünmək, dünya bazarının standartları ilə uzlaşdırılması mümkün olan Milli problemlərin həlli yollarını tapmaq bacarıqlarını inkişaf etdirmək.

İqtisadi diplomatiya – müasir elmin, dünya iqtisadiyyatı praktikasının və beynəlxalq iqtisadi fəaliyyətin; bütün sahələrdə (siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, dini və b.) beynəlxalq münasibətlərin ayrılmaz tərkib hissəsidir.

**Mövzu 1. <u>İqtisadi diplomatiyaya giriş</u>**

İqtisadi diplomatiyanın tərifi, formalaşması və təşəkkülü tarixi. «İqtisadi diplomatiya» kursunun əsas vəzifələri və məqsədləri. Əsas termin və anlayışlar.

**Mövzu 2. <u>İqtisadi diplomatiya – dünya iqtisadiyyatının dövlətlərarası tənzimlənməsinin müasir sistemi</u>**

İqtisadi diplomatiyanını əsas funksiyaları. İqtisadi diplomatiya sahəsində fəaliyyətin əsas sferaları, onların mahiyyətinin açıqlanması. İqtisadi diplomatiyanın hüquqi alətləri və siyasi standartları.

**Mövzu 3. <u>Qloballaşma prosesinin iqtisadi diplomatiyaya təsiri</u>**

İqtisadiyyatda qloballaşmanın əlamətləri, qloballaşmanını yaratdığı problemlər və yeni dünya reallıqlarının iqtisadi diplomatiyaya təsiri. Azərbaycanın xarici siyasətinin «iqtisadlaşması» aktual bir məsələ kimi.

**Mövzu 4. <u>Milli maraqlar və iqtisadi diplomatiya</u>**

Milli maraqlar Milli iqtisadi təşlükəsizliyin təminatı kontekstində. Milli iqtisadi təhlükəsizlik məsəllərinin kəskinləş-məsinə təsir edən amillər və bundan irəli gələn vəzifələr. Milli maraqların tərifinə baza

yanaşmalar, onların mahiyyətinin açıqlanması. Korrupsiya Milli təhlükəsizliyin problemi kimi.

### Mövzu 5. Xarici investisiyalar iqtisadi diplomatiyanın obyekti kimi

Birbaşa xarici investisiyalar bazasının genişlənməsində iqtisadi diplomatiyanın rolu. Beynəllxalq investisiyaların qoyulması qaydalarının formalaşması tarixindən. Müasir dövrdə bununla bağlı əsas müzakirə obyektləri və ziddiyyətlər. İnvestisiya formalarının beynəlxalq biznes formaları ilə əlaqəsi.

Kapital ixracının idxalı və ixracının coğrafik strukturu. Azərbaycan müasir beynəlxalq investisiya sistemində.

### Mövzu 6. Rəqabət standartları və vergiqoyma iqtisadi diplomatiyanın obyekti kimi

Rəqabat standartlarının müəyyənləşməsində əsas istiqamətlər, onların mahiyyəti. Dövlətlərin razılaşdıra bilmədiyi məsələlər və tərəflərin mövqeyi.

Beynəlxalaq münasibətlər sistemində vergiqoyma ilə bağlı əsas danışıqlar istiqamətləri və obyektləri. İnkişaf etməkdə olan ölkələrin beynəlxalq vergitutmanın tətbiqi ilə əlaqədar təşəbbüsləri. Bu təkliflərin ümumi və fərqli cəhətləri.

**Mövzu 7. İqtisadi təhlükəsizlik və iqtisadi diplomatiya**

«Milli iqtisadi təhlükəsizlik» dar və geniş çərçivədə tərifləri. Milli iqtisadi təhlükəsizliyin və beynəlxalq iqtisadi təhlükəsizliyin qarşılıqlı əlaqəsi. Dövlət və biznesin maraqlarının «toqquşması» və problemin diplomatik yollarla həlli cəhdləri. Milli maraq və gömrük-tarif siyasəti. Milli iqtisadi təhlükəsizliyin geniş anlamda tərifi ABŞ iqtisadi diplomatiyasının və iqtisadi təhlükəsizlik prinsiplərinin timsalında.

Beynəlxalq iqtisadi təhlükəsizliyin təminatının problemləri. Beynəlxalq iqtisadi təhlükəsizlik platformasının formalaşdırılması tarixindən və bununla bağlı dövlətlərarası fikirayrılıqları. Dövlət və biznes arasında qarşılıqlı məsuliyyət və beynəlxalq davranış qaydalarının müəyyən edilməsi cəhdləri, nəticələr və perspektivlər. Ekoloji məsələlər uğurlu dövlət-biznes danışıqlarının timsalı qismində.

**Mövzu 8. Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi diplomatiyası**

ABŞ-ın iqtisadi diplomatiyasının formalaşması prosesi. Dövlət departamenti və Ticarət nazirliyinin iqtisadi diplomatiya sahəsində səylərinin birləşdirilməsi. Xarici diplomatik missiyalarda «iqtisadçı»-diplomatların artımı və kadrların seçimində Ticarət nazirliyinin iştirakı. Diplomatik nümayəndə-

liklərin müasir reallıqlara uyğun formalaşmış yeni funksiyaları və məqsədləri.

Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin fəaliyyətində iqtisadi diplomatiya prioritet istiqamət kimi. Fransa hökümətinin diplomatik kadrlar qarşısında qoyduğu yeni tələblər. Xarici siyasi fəaliyyəti təhlil edən və qiymətləndirən İqtisadi və maliyyə məsələləri üzrə Baş İdarənin yaradılması.

Almaniya və Yaponiyanın iqtisadi diplomatiyalarının səciyyəvi xüsusiyyətləri.

**Mövzu 9. Ticarət diplomatiyasının iqtisadi infrostrukturunun yaradılması və inkişaf etməkdə olan ölkələrin iqtisadi diplomayaları**

Ticarət diplomatiyası ilə məşğul olan strukturların yaradılması və səlahiyyətlərinin genişləndirilməsi. Dünya ölkələrinin bununla bağlı təcrübəsi. Ticarət diplomatiyasının infrostrukturunda səviyyələr və onların səciyyəvi xüsusiyyətləri. Ümummilli, diplomatiya və beynəlxalq münasibətlər səviyyələrində problemlər və neqativ aspektlər. Diplomatiya və xarici işlər qurumlarının iqtisadi sahədə fəaliyyətlərinin genişlənməsi. İqtisadi diplomatiyanın «kollektiv dayaqları». Diplomatiyanın iqtisadi informasiya xidmətləri.

## Mövzu 10. **<u>İqtisadi diplomatiyanın beynəlxalq institutları</u>**

Beynəlxalq institutların rolunun artmasının səbəbləri. Beynəlxalq iqtisadi inkişaf və təhlükəsizlik məsələləri ilə məşğul olan BMT-nin strukturları, onların vəzifələri. İqtisadi əməkdaşlıq və İnkişaf Təşkilatının əsas funksiyaları, üzv ölkələri.

«Böyük səkkizlik» formatının yaranması, onun iqtisadi diplomatiyada rolu. Liderlərin görüşlərinə hazırlıq olaraq ekspetrlər qruplarının fəaliyyətinin genişlənməsi.

Dünya iqtisadiyyatının «yaralı nöqtələrinin» müəyyən edilməsinin problemləri. Bu istiqamətdə Roma klubunun fəaliyyəti və proqnozları.

Beynəlxalq iqtisadi institutlarda Azərbaycanın fəaliyyəti. Azərbaycanın iqtisadi diplomatiyasının formalaşması istiqamətində: problemlər və perspektivlər.

# ƏDƏBİYYAT


1. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı, 2000.
2. Azərbaycan beynəlxalq aləmdə. I-V cildlər. Bakı, 1996-1999.
3. Azərbaycan beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrdə. Bakı, 1997.
4. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2005.
5. Rəcəbov H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. Bakı, 1997.
6. Бзежинский З. Великая шахматная доска. – М., 1999.
7. Герчикова И.Н. Международное коммерческое дело. – М., 1996.
8. Дюмулен И.И. Всемирная торговая организация. – М., 1997.
9. Жизнин С.З. Энергетическая дипломатия. – М., 1999.
10. Иванов О.В. Государственное регулирование внешне-экономических связей Японии. – М., 1999.
11. Основы внешнеэкономических знаний. - М., 1994.
12. Портер М. Международная конкуренция. – М., 1993.
13. Правила рынка. – М., 1994.
14. Римский клуб: история создания. – М., 1997.
15. Скотт Н., Джозеф Ф. Дипломатия доллара. – Л., 1926.
16. Щетинин В.Д. Экономическая дипломатия. - М., 2001.
17. Clark E. Corps Diplomatique.- L., 1973.
18. Diplomacy for the Future. – Geogtown university, 1987.